**NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU**

# “Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivlər – 2020”

**mövzusunda videobağlantı formatında keçirilmiş**

**RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ**

# MATERİALLARI

**Naxçıvan, 21 may 2020-ci il**

**EMİL AĞAYEV**
*Azərbaycan Rəssamlıq Akademiyasının magistrantı*
*emilaghayev93@mail.ru*

# ORTA MƏKTƏBLƏRDƏ TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİNİN TƏDRİSİ: PROBLEMLƏR VƏ HƏLLƏR

*İncəsənət hər bir insanın dünyagörüşü, daxili aləmi və estetik zövqünün formalaşmasında mühüm yer tutur. Bütün bu sadaladıqlarımız orta məktəblərdə təhsil alan şagirdlərin onlara tədris edilən fənlərin düzgün şəkildə tədris olunmasından başlayır. Azərbaycan Respublikasında orta məktəblərdə təsviri incəsənət fənni birinci sinifdən başlayaq doqquzuncu sinfə qədər keçirilir.*

*Orta məktəblərdə tədris olunan təsviri incəsənət fənni çox təssüf olsun ki, şagirdlərdə maraq oyatmır. Burada bir sıra ciddi problemlər var. Məqalədə bu problemlərdən bəhs edilmiş və həlli yolları göstərilmişdir.*

***Açar sözlər:*** *Təsviri incəsənət, problem, fənn, orta məktəb, perspektiv.*

İncəsənət hər bir insanın dünyagörüşü, daxili aləmi və estetik zövqünün formalaşmasında mühüm yer tutur. Bütün bu sadaladıqlarımız orta məktəblərdə təhsil alan şagirdlərin onlara tədris edilən fənnlərin düzgün şəkildə tədris olunmasından başlayır. Özündə rəng, işıq-kölgə, plastika və digər anlayışları birləşdirən təsviri incəsənət fənninin də şəxsiyyətin formalaşmasında oynadığı rolu vurğulamalıyıq.

Orta məktəblərdə təsviri incəsənət fənni üzrə dərsliklər. Azərbaycan Respublikasında orta məktəblərdə təsviri incəsənət fənni birinci sinifdən başlayaq doqquzuncu sinfə qədər keçirilir. Birinci və ikinci sinif dərsliklərində təsviri incəsənət üzrə ilkin anlayışlar, Qəzənfər Xaliqov, Cəlal Qaryağdı, Bəhruz Kəngərli və Əzim Əzimzadə kimi sənətkarlar haqqında qısa məlumatlar verilir. Həmçinin dərsliklərdə məşğələlərin verilməsi, şagirdlərin yaradıcılıq qabiliyyətini artırır. Dünyanın məşhur muzeylərinə səyahət edilərək, həm də yeni formalaşan şagirdlərin dünyagörüşünün artmasına xidmət edir. Üçüncü və dördüncü sinif dərsliklərində Azərbaycan və avropa təsviri incəsənət tarixinə aid nümunələr işlənilmişdir. Nəzəri və praktik biliklər qarşılıqlı şəkildə əlaqələndirilir. Beşinci və altıncı siniflərin təsviri incəsənət üzrə dərsliklərində çoxlu nəzəri səhvlərin olmasını qeyd etməliyik. Həmin bu siniflər üzrə dərs vəsaitləri yenidən işlənilərək, daha da təkmilləşdirilməlidir. Orta məktəblərin yeddinci sinif dərsliklərində daha çox üslubların tarixi və estetik nəzəriyyəsinə geniş yer ayrılıb.Səkkizinci sinif dərsliyinə nəzər yetirsək 19-20-ci əsr Azərbaycan və Avropa təsviri incəsənət tarixi, rəssamları və onların məşhur əsərləri şagirdlərdə marağın oyanması üçün mühüm əhəmiyyət kəsb edir. Doqquzuncu sinif dərsliyində isə müasir dövr incəsənəti araşdırılıb və təqdim edilir. Bütün bu dərsliklərdə məşhur əsərlər sənətşünaslıq kontekstində təhlil edilərək daha da şagirdlərdə maraq oyadır.

Orta məktəblərdə təsviri incəsənət fənninin tədrisində problem və perspektivlər.Orta məktəblərdə tədris olunan təsviri incəsənət fənni çox təssüf olsun ki, şagirdlərdə maraq oyatmır. Burada bir sıra ciddi problemlər var. Çünki müasir təhsilin yeni təlim-texnologiyaları bu fənn üçün də tətbiq edilməlidir. Hər il təhsil nazirliyinin müəllimlərin işə qəbul zamanı yalnız təsviri incəsənət müəllimliyi ixtisası üzrə bitirən məzunların müsabiqəyə buraxılması düzgün qərar deyil. Biz bu fənn üzrə dərsliklərə diqqətlə nəzər yetirsək, nəzəri biliklərin üstün olduğunu görə bilərik. Müsabiqə zamanı sənətşünaslıq yəni təsviri incəsənət tarixi və nəzəriyyəsi ixtisası üzrə məzunların müsabiqəyə qəbulu orta məktəblərdə bu fənnin tədrisinə müsbət nəticə verər. Çünki nəzəri bilikləri və fənnin müasir təhsil qaydalarına uyğun daha dinamik şəkildə məhz adı çəkilən ixtisasın məzunları daha dərindən öyrənir. Təsviri incəsənət fənninin tədrisi zamanı hər bir mövzu müəyyən bir slayd təqdimatı, videolardan istifadə edilərək, şagirdlərdə bu fənnə qarşı müəyyən maraq oyatmaq olar. Təhsil nazirliyi bu fənn üzrə müəllimlərin işə qəbul zamanı

sənətşünaslıq (təsviri incəsənət tarixi və nəzəriyyəsi) ixtisası üzrə bitirən məzunları da cəlb edərək daha uğurlu nəticələr əldə edə bilərik.

"Orta məktəblərdə təsviri incəsənət fənninin tədrisi: problem və perspektivlər" tezisinin əsas nəticələri aşağıdakılardır:

1. Təsviri incəsənət fənni üzrə dərsliklər təhlil edilmişdir
2. Təsviri incəsənət fənninin tədrisindəki problemlər araşdırılmışdır
3. Təsviri incəsənət fənninin tədrisində yeniliklər etmək üçün bir sıra maraqlı təkliflər verilmişdir.

## ƏDƏBİYYAT

1. Təsviri incəsənət (ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün dərslik); Bakınəşr, 2012, 64 s.
2. Təsviri incəsənət (ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün dərslik); Bakı: Azərnəşr, 2012, 64 s.
3. Təsviri incəsənət (ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün dərslik); Bakınəşr, 2011, 72 s.
4. Təsviri incəsənət (ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik); Bakı: Aspoliqraf, 2012, 79 s.
5. Təsviri incəsənət (ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik); Bakınəşr, 2019, 95 s.